# GÖZDƏN ƏLİLLƏR KİTABXANASINDA GÖRMƏ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏRƏ İNFORMASİYA XİDMƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

**Fərida Abdullazadə**

*BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı*

Azərbaycanda "Gözdən Əlillər Cəmiyyəti" 1931-ci ildən fəaliyyət göstərir. Dövlət orqanlarının köməyi və qayğısı nəticəsində 1951-ci ildən öz nizamnaməsi əsasında maddi-texniki bazasını yaratmışdır. Bakı şəhəri üzrə 5 kombinatı, 2 mədəniyyət evi, 1 səsyazma studiyası, (burada gözdən əlillər üçün kitablar hazırlanır) musiqi birliyi, mətbəə və eyni zamanda 11 rayon üzrə şöbələri fəaliyyət göstərirdi.

Respublika Gözdən Əlillər Kitabxanası 1981-ci il iyunun 1-də Azərbaycan Korlar Cəmiyyətinin təşəbbüsü ilə həmin Cəmiyyətin tabeliyində "Mərkəzi Respublika Korlar Kitabxanası" kimi fəaliyyətə başlamışdır. Kitabxananın fondunu Brayl kitabları, audiokassetlər, CD-lər və dövri mətbuat təşkil edir. 1994-cü il yanvarın 1-dən etibarən kitabxana Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə keçmiş və "Respublika Korlar kitabxanası" adlanmışdır. 2002-ci ildən isə Azərbaycan Gözdən Əlillər Cəmiyyətində yaradılmış studiyada milli dildə kitab yazılışına, 2006-cı ildən isə yeni yaradılmış tipoqrafiyada Brayl şrifti ilə Azərbaycan dilində kitabların çapına başlanmışdır.

Kitabxananın iş prinsipi gözdən əlilləri audio (CD, mp3) və "Brayl" əlifbasında olan kitablarla təmin etməkdir. Kitabxanaya üzv olan hər bir gözdən əlil kitabları buradan götürərək evlərində rahat şəkildə oxuya bilər. Yaxud da kitabxananın özündə maqnitafon, DVD və kompüterlər vasitəsilə kitablar oxuyurlar. Yeganə məhdudiyyət isə odur ki, hər hansı bir kitabı evdə çox saxlamaq olmaz. Çünki başqa oxucular da o kitabdan istifadə edirlər.

Bütün xidmətlər tam olaraq pulsuzdur. Hətta elə görmə məhdudiyyətli şəxslər var ki, kitabxanaya gələ bilmirlər, kitabxana özü kitabları onların evlərinə çatdırır.

Kitabxananın fondunda kitablar Azərbaycan, rus və ingilis dillərində hazırlanıb. Kitabxana üzvlərinin sayı 1000-ə yaxındır. Burada həyata keçirilən əsas prinsiplərdən biri də mp3 formatında olan kitabların nüsxələrini çıxararaq bölgələrdəki mərkəzi kitabxanaların fondunda yaradılan "Gözdən əlillər" güşəsini təmin etməkdir. Yəni kitabxana kollektivi regionlardakı gözdən əlilləri də kitabla təmin etməyə çalışır. Kitabxananın fondunda

dərsliklər də yer alır. Bölgələrdəki oxuculara da bu dərsliklərdən göndərilir.

Brayl kitabları kitabxananın fondunda geniş yer almaqdadır. Kitabxanada brayl şrifti ilə kitab çap etmək üçün brayl printi yerləşdirilmişdir. Kitabxanada həmçinin audio kitabların yaradılması üçün səs yazma studiosu qurulmuşdur ki, könüllülər burada bir çox kitabları səsləndirirlər.